# Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi







Bakı şəhəri Mirzə İbrahimov 8 ünvanında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi yerləşir. Bina 1885-ci ildə inşa edilib. Vaxtilə yəni 1922-ci ildə Üzeyir bəyin təşəbbüsü ilə burada Azərbaycan Dövlət Türk musiqi məktəbi fəaliyyət göstərib. 1924-cü ildən orta ixtisas musiqi təhsili hüququ qazanaraq Azərbaycan Dövlət Türk Musiqi Texnikumu adlandırılıb. Beləliklə, bu bina vaxtilə adlanan A.Zeynallı (indiki Musiqi Kolleci) və Azərbaycan Dövlət Konservatoriyası (indiki BMA) yerləşdiyi məkan olub. Üzeyir Hacıbəyli isə burada direktor vəzifəsində işləyib. Uzun illər bina müxtəlif müəssisələrin iş ünvanı olub. Amma, heç kəs Üzeyir bəyin otağına xələl gətirməyib. Bir müddət boş qalan otağı BMTM-nin əməkdaşları bəstəkarın xatirəsini əbədiləşdirmək üçün muzey olaraq seyrçilərin ixtiyarına veriblər. Hətta 2020-ci ilin sentyabr ayının 18-də Üzeyir bəyin doğum günü Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru Fərid Şəfiyevin təşəbbüsü ilə "Açıq qapı" günü elan olunub. Bununla da bura gələnlər həmin otaqda Üzeyir bəyə məxsus olan əşyaları görməklə sanki Üzeyir dünyasına səyahət edirlər. Belə bir təşəbbüsə və Üzeyir bəyin irsinə olan sonsuz hörmət və sevgi üçün BMTM-nin rəhbərliyinə və əməkdaşlarına musiqi ictimaiyyəti adından minnətdarlığımızı bildirir, oxucularımıza isə həmin otağın fotolarını təqdim edirik.

